## *RİYAZİYYAT FAKÜLTƏSİNİN TARİXİ*

Ali Pedaqoji İnstitut yaradılarkən burada təşkil edilən üç şöbədən biri Fizika-riyaziyyat şöbəsi olub. Şöbənin ilk rəhbəri (dekanı) Məmməd bəy Əfəndiyev olub. İlk tədris ilində şöbənin əsas fənn müəllimi Məmməd Əfəndiyev idi. İkinci tədris ilində fizika müəllimi Rəhim Məlikov və təcrübə məşğələlərini aparmaq üçün H.V.Berq şöbəyə işləməyə dəvət olundular. Az sonra Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsinin məzunu Bəhram Mirzəyev də Ali Pedaqoji İnstituta dəvət edildi. Şöbənin 1924-cü ildə 9 nəfərdən ibarət ilk məzunuoldu ki, onlardan da 7 nəfəri riyaziyyat müəllimi idi. Şöbəni 1925-ci ildə 6, 1926-cı ildə 24, 1927-ci ildə 17 nəfər bitirdi. Ali Pedaqoji İnstitut 1927-ci ildə ADU-nun Pedaqoji fakültəsi ilə birləşdiriləndə fizika- riyaziyyat şöbəsi eyni adı fakültə ilə birləşdirildi. 1930-cu ildə Ali Peda- qoji İnstitut yenidən təşkil edilərkən burada fəaliyyətə başlayan fakültə- lərdən biri də Təbiyyat-riyaziyyat fakültəsi (dekan Mehdi Əliyev) oldu. Fakültənin nəzdində riyaziyyat fənləri ilə bağlı iki kafedra fəaliyyət göstərirdi: Riyaziyyat kafedrası (dos.M.Əfəndiyev), Riyaziyyat metodikası kafedrası (prof.A.Ammosov).

Riyaziyyat kafedrasında dos.Məmməd Əfəndiyev, dos.A.X.Usub- bəyova, prof.Məmməd Əliyev, Bəhram Yusifzadə, Abdulla Tahirzadə, Tağı Namazzadə, Abdulla Təmrazlı və b. , Riyazyyat metodikası kafedrasında prof.A.Ammosov, Tahir Abdullayev və b. çalışırdı.

Fizika-riyaziyyat fakültəsinə 1934-1936-cı illərdə dos.Məmməd Əfəndiyev, 1936-1938-ci illərdə Bəhram Yusifzadə, 1938-1941-ci illərdə Abbasqulu Abbaszadə rəhbərlik etmişdir.

1939-cu ildə institutda təşkil edilən fakültələrdən biri də Fizika-riyaziyyat olmuşdur. Fakültənin nəzdində riyaziyyatla bağlı 2 kafedra fəaliyyət göstərirdi: Riyazi analiz, Həndəsə və cəbr. 1941-1943-cü illərdə fakültə ADU-nun müvafiq fakültəsi ilə birləşdirilmişdir.

1943-cü ildə müstəqil fəaliyyətə başlayan APİ-də yaranan 5 fakültədən biri Fizika-riyaziyyat fakültəsi (dekan prof.Abasqulu Abaszadə) olmuşdur. Fakültənin nəzdində 2 kafedra fəaliyyət göstərirdi: Riyaziyyat (müdir dos.Bəhram Yusifzadə), Fizika (müdir prof.Abasqulu

Abaszadə). Fakültəyə 1943-1957-ci illərdə prof.Abasqulu Abaszadə, 1957-1962-ci illərdə Xanməmməd Mirzəyev, 1962-1968-ci illərdə Teyfur Xasməmmədov) rəhbərlik etmişdir.

Riyaziyyat fakültəsi 1969-cu ildə Fizika-riyaziyyat fakültəsinin iki yerə bölünməsi nəticəsində yaranmışdır. Fakültəyə ayrı-ayrı vaxtlarda dos. Əli Cəfərov (1969-1971), prof. Qardaşxan Orucov (1971-1976), prof. Əlif Məmmədov (1974-1977), Şamil Vəkilov (1978-1981), dos. Firudin Abdullayev (1981-1987), dos. Cəfər Süleymanov (1987-1994), dos.Şakir Məmmədov (1994-2001), prof.Maqsud Nəcəfov (2001-2019) rəhbərlik etmişlər. 2019-cu ildən fakültəyə dos. ***Araz Salamulla oğlu Fərəcov*** rəhbərlik edir.